**Nazilə Sadıqova Elmar qızı [56]**

# İNGİLİS ƏDƏBİYYATINDA ROMANTİZM ƏDƏBİ CƏRƏYANI

İngiltərədə romantizmin yaranması, xüsusilə Fransa burjua inqilabı ilə əlaqələndirilir. 1789-1799-cu illər arasındakı inqilab, İngiltərənin ictimai-siyasi həyatında kəskin qarşıdurmalar yaradaraq, yaradıcı insanlara dərin təsir göstərmişdir. Bu dövrün sosial dəyişiklikləri, kiçik istehsalat müəssisələrinin böyük sənaye mərkəzləri ilə əvəzlənməsi və sosial faciələr, insanların kütləvi səfalətə düşməsi kimi qlobal hadisələr, romantizmin inkişafına zəmin hazırlamışdır. İngilis romantizminin əsas nümayəndələrindən olan Vordsvord, Kolric və Sauti, "Göl məktəbi"ni təmsil edərək fərqli bir mövqedən bu cəmiyyətdaxili prosesləri ələ almışlar.

T.Əfəndiyevin "Romantizm: təşəkkülü, problemləri, şəxsiyyətləri" adlı monoqrafiyasında ingilis ədəbiyyatında romantizm ədəbi cərəyanı tarixinin şərti olaraq üç mərhələyə ayrılması qeyd edilmiş, birinci mərhələ XVIII əsrin 90-ci illəri ilə, ikinci mərhələ isə XIX əsrin 10-30-cu illəri ilə əlaqələndirilmiş, üçüncü mərhələnin hansı dövrlə bağlılığı haqqında söz açmağa ehtiyac duyulmamışdır [2, s. 94-99].

Qeyd etməyə ehtiyac vardır ki, nəzəri mənbələrin əksəriyyətində ingilis romantizminin yaradıcaları olaraq "Göl məktəbi" nümayəndələrindən söz açılır. Bununla belə, romantizmlə əlaqələndirilən sənətkarlar sırasında Uilyam Bleykin də adı çəkilməkdədir. 1757-1827-ci illərdə yaşayıb-yaratmış bu şair-rəssamın həyatı və yaradıcılığı böyük əksəriyyətlə elmi dövriyyədən kənarda qalsa da, bəzi ədəbiyyatlarda, o cümlədən T.Əfəndiyevin "Romantizm: təşəkkülü, problemləri, şəxsiyyətləri" əsərində ingilis romantizminin məhz Uilyam Bleyklə başlaması fikri ilə qarşılaşırıq [2, s. 93]. XIX əsrin birinci yarısında ingilis ədəbiyyatı üçün səciyyəvi olan inkişaf istiqamətlərindən bəhs edən rus ədəbiyyatşünası D.M.Urnov yazır: "Bleykin poeziyasında romantiklərə (romantizm ədəbi cərəyanı nümayəndələrinə - N.O.) uyğun gələn çox şey görmək olardı: universallıq, dialektika, panteist motivlər, dünyanı hərtərəfli, mənəvi və praktik dərk etmək istəyi ... Onlar (Bleykin gənc müasirləri – N.O.) əslində ona diqqətlə baxdılar və fərqi hiss edərək geri çəkildilər. Bleykin dünyaya münasibəti romantiklərin nəzərində hədsiz sayıla biləcək mistik simvolizm nümayiş etdirir. Kolric də Vordsvord kimi, bəzi şeirlərini Bleykin misralarına uyğunlaşdırdı, lakin həm də qeyd etdi ki, Bleykin mistik simvolizminin yanında onun öz simvolizmi mistik boyalarla rənglənmiş "mədəni sağlam düşüncəyə" bənzəyir. Çünki Bleyk böyük xəyal gücü ilə ruh və materiyanın vəhdətini təsəvvür edir, bildirirdi ki, bu vəhdətin ən yüksək təcəssümü insan-tanrı, ideal şəkildə inkişaf etmiş şəxsiyyətdir" [10, s. 90]

Bəlkə də, özündən sonrakı romantizmə ciddi təsir göstərmədiyindən Uilyam Bleykin yaradıcılığı kölgədə qalmışdır. Bununla belə, qeyd etməyə ehtiyac vardır ki, Bleyk sənətinin novatorluğu, bu sənətdə düşüncə və duyğuların sadə, eyni zamanda simvollarla ifadəsi, şair tərəfindən təbiət və insan mənəviyyatındakı ziddiyyətlərin yeni üslubda qələmə alınması elmi düşüncə tərəfindən etiraf olunmaqdadır. Məsələn, Ankara Universitetinin dosent doktoru Nazan Turaş "Villiam Bleykdə məsumiyyət və təcrübə: quzu və pələng" yazısında şair sənətindəki yeniliyi belə dəyərləndirmişdir: "Bleyk bu kolleksionunda ("Məsumiyyət və təcrübə nəğmələri" kitabında – N.O.) yer tutan şeirlərində həqiqi mənada insan mənəviyyatına və cəmiyyətə həm həm optimist, həm də pessimist mövqedən aydınlıq gətirməyə çalışmış, hər iki baxış bucağının gərəkliyini vurğulamış, göstərmişdir ki, təzadlarsız inkişaf mümkün deyil. Şairə görə, cazibə və rədd, zəka və enerji, sevgi və nifrət insan üçün dərəcədə gərəklidir ... Kitab mövzusu İncil və xristian hekayələrindən alınaraq sadə, simvollarla və zəngin musiqili dildə yazılmış şeirlərdən ibarətdir" [ 11, s. 84].

Maraqlıdır ki, ədəbiyyatşünaslıq uzun müddət romantizmi real həyatdan uzaq, ayrı bir dünya kimi təqdim etmişdir. Lakin Nazan Turaş ingilis şairi Bleyki təhlil edərkən, onun reallığı daha aydın görmək və insanları pisliklərdən uzaqlaşdırmaq baxımından şairlərin peyğəmbər kimi rol oynadığını vurğulayır. Bleyk, təbiətdən və qeyri-adi gücə malik simvollardan istifadə edərək, nağıllar aləmi ilə real həyatın dərin mənasını ifadə etmişdir. Nəticədə, ingilis romantizminin ağsaqqalı müasirlərinə nağıllar və real həyat arasında fərq qoymağa çağırır.

Etiraf etmək lazımdır ki, Bleykin bu kimi fikirləri sonradan ingilis romantizminin görkəmli nümayəndələri tərəfindən davam və inkişaf etdirilmişdir. Məsələn, Corc Qordon Bayronun "Şilyon məhbusu" əsərində artıq zaman inkar edilir, kədəri sevməyin mümkünlüyündən danışılır, zindanın insana ev qədər doğmalaşacağı bildirilir, təbiətlə insan arasındakı bütün sədlər aradan qaldırılır, hörümçək, məhbəs siçanları və insandan eyni mənzilin sakini kimi söz açılır, bir dinə bağlı olduqlarından zəiflər və güclülərin mehriban yaşamasının mümkünlüyü xatırladılır, azadlığın kədərlər qarşılanmasında qüsur görülmür [1, s. 149].

"Villiam Bleykdə məsumiyyət və təcrübə: quzu və pələng" məqaləsində Bleykdə yaradıcılığının səciyyəvi cəhəti kimi simvollardan istifadə nəzər nöqtəsinə çəkilir, eyni zamanda məxsus qeyd olunur ki, ingilis romantizminin bu ilk nümayəndəsi sənətdə mövcud simvollardan istifadəyə deyil, yeni simvollar yaratmağa üstünlük vermişdir və bu səbəbdən "Məsumiyyət və təcrübə nəğmələri" kitabında cimvolsuz, rəmzsiz və alleqoriyasız şeirə rast gəlmək mükün deyil. "Onun şeirlərində təkrarlanan sadə və aydın simvollar çoxdur. Məsələn, onun bir çox şeirlərində "pələng" yaradıcı enerjinin, "quzu" və "uşaq" Məsihi və məsumluğu, "ağac" qəzəbin, düşmənləri məğlub etmək istəyinin və insan təbiətindəki qaranlıq tərəfin simvoludur"[11].

[56] Naxçıvan Dövlət Universiteti, doktorant. Azərbaycan Respublikası, Naxçıvan MR, Naxçıvan şəhəri
oruceliyevanazile@gmail.com ORCID: 0009-0005-3041-6087

Bleykin "Pələng" şeirində təbiətin mistik gözəlliyi və Tanrının qüdrəti vurğulanır. Şair, qaranlıq meşələrdə atəş saçan pələngə müraciət edərək, onun qorxunc görkəmindən və bu gücü yaradan Tanrıdan bəhs edir. Şairə görə, pələng kimi qüvvətli varlıqları yalnız Tanrı yarada bilər və bu varlığın quzu ilə birlikdə yaradılması, Tanrının mükəmməl və qeyri-adi gücünü göstərir. Romantizmin nümayəndələri, realistlərin ağıl kultunun insan zəkasını Tanrının qüdrətinə qarşı qoyduğunu düşünürdülər. Bildiyimiz kimi, elmi ədəbiyyatlarda fransız maarifçi realistləri olan Volter, Deni Didro, Jan Jak Russo kimi yazarların deist, yaxud ateist mövqeyində dayanmalarından da söz açılmaqdadır [8, s. 81; s. 89; s. 98]. "Pələnf" şeir məhz realistlərə cavab olaraq qələmə alınmışdır və şeirin sonunda müəllif qəti şəkildə bildirir ki, heç bir ağıl pələngin möhtəşəm quruluğunu yaratmaq qüdrətində deyil:

Pələng, məşəl kimi parlayıb gedən,
Gecənin qaranlıq meşələrində;
Hansı ölməz gözlə, ölməz əllə ya,
Yarandı səndəki bu simmetriya? [12 ]

"Quzu" şeirində bu ideyalar daha aydın ifadə olunmuşdur. Şeirin ilk bəndində Tanrının müraciəti ilə quzudan onu yaradanın kimliyi soruşulur. Burada insan təfəkkürü quzunun mövcudluğunu təmin edən böyük Yaradan haqqında düşünməyə yönləndirilir. İkinci bənddə isə quzunun simvolik mənası açılır. Nazan Turaşın təhlilinə görə, bu sadə şeir əslində Allahın dünyanı, quzunu və uşağı yaratması haqqında dərsdir. Quzunun Yaradanı Allahdır və onun insan şəkli Həzrət İsadır. "Məsumiyyət nəğmələri"ndəki "quzu" vurğusu İsanın insanları günahdan təmizləmək üçün özünü qurban verməsini xatırladır. Xristian inancına görə, daha doğrusu "İncil"in son fəslində Həzrət İsa anti-xristianları məğlub edən və bəşəriyyəti xilas edən ilahi güclərə malik "Allahın quzusu" kimi xatırladılmışdır" [11, s. 96 ].

Şeirdə əsas məqam təbiətlə insan mənəviyyatının vəhdətindən doğan məsumluğun təqdimidir. "Quzu" şeirinə görə, Tanrının yaratdığı hər şey gözəldir. Bu yanaşma dünya romantizmində mühüm prinsipə çevrilmiş və müxtəlif poetik ifadələrlə özünü göstərmişdir. Xatırladaq ki, Azərbaycan romantizmini təmsil edən Hüseyn Cavid bir qədər də dəqiqliklə "Mənim Tanrım gözəllikdir, sevgidir" deyirdi [6, s. 55].

"Göl məktəbi" nümayəndələri uzun müddət mürtəce romantizmin təmsilçiləri kimi təqdim edilmişdir. Lakin bu yanaşmada məntiqsizliklər var. Məsələn, "XIX əsr xarici ölkələr ədəbiyyatı" dərsliyində Vordsvord və Kolricin **"Lirik balladalar"** kitabının 1880-ci il nəşrinin müqəddiməsi ingilis romantizminin mürtəce manifesti kimi dəyərləndirilmişdir. Halbuki bu müqəddimə klassisizmdən uzaq, sadə insanların gündəlik həyatını əks etdirən yeni ədəbi prinsipləri müdafiə edirdi. Yalnız vətəndaşlıq rəşadətini yox, insanın daxili aləmini, onun mənəviyyatında olan ziddiyyətləri də göstərmək lazımdır" [9, s. 89].

"Göl məktəbi" nümayəndələrinin romantizmdəki yerini sosialist baxışlarla izah etmək yanlışdır. Realizm və naturalizm də sadə insanların həyatını təsvir etməyə çalışmış, süni qanunları inkar etmişdir. Buna görə romantizmi yalnız bu göstəricilərlə fərqləndirmək absurddur. Müasir elmi ədəbiyyatlarda "Göl məktəbi"nin xidmətləri yüksək qiymətləndirilir. G. Ələkbərli yazır ki, ingilis və amerikalı ədəbiyyatşünaslar onları 19-cu əsrin ən böyük şairləri sayır və Bayron, Şellidən üstün tutur. Leykistlərin ədəbi fəaliyyətləri 19-cu əsrin ortalarına qədər davam etmişdir. 1843-cü ildə artıq "Şeytan məktəbi" adlandırılan Bayron, Şelli və Kits həyatda olmadıqları vaxtda Vordsvort Sautidən sonra saray şairi adına layiq görülmüşdü" [3, s.223].

Vordsvordun "Lirik balladalar" kitabının müqəddiməsi romantizmlə bağlıdır. O, poeziyanı "güclü duyğuların sakit təfəkkürlə xatırlanıb qələmə alınması" kimi təsvir edir. Poeziya prosesi dörd mərhələdən ibarətdir: təcrübə yaşanmalı, sakit zaman xatırlanmalı, təfəkkürdən keçirilməli və sadə dildə ifadə edilməlidir. Vordsvord təxəyyülün əhəmiyyətini vurğulayır, onun fikrincə insan ağlı passiv deyil, ilahi yaradıcılığa sahibdir. Ən əhəmiyyətsiz varlıq və hadisələr belə poeziya mövzusu ola bilər, bunu ən yaxşı kəndlilər bacarır, çünki onlar təbiətlə əlaqədədir. "Sənət üçün sənət deyil, həyat üçün sənət" qaydasını mənimsəyən Vordsvorda görə, poeziya insanlara əxlaqi və fəlsəfi dəyərləri öyrədərək onlar; yüksəltmək məqsədi daşıyır" [14].

Vordsvord yeni estetik prinsipləri əsaslandırarkən dünya ədəbiyyatının tarixi təcrübəsini diqqətə almış, bildirmişdir ki, ədəbi dilin ifadələri və simvolları müxtəlif dövrlərdə fərqli şəkildə yaranmışdır. "Lirik balladalar"ın müqəddiməsində "Göl məktəbi" nümayəndələri mövcud ədəbi prinsipləri rədd etmişlər. Vordsvord, oxucunun modern yazarlara alışdığı üçün yeni şeirləri qəribə tapacağını və bu yazılara şeir adının verilməsi barədə suallar yaranacağını vurğulamışdır. İngilis romantizmində "Göl məktəbi" şairləri şəhər həyatından uzaq, sadə və sakit kənd həyatını üstün tutmuş, belə bir mühitin insan hissləri ilə təbiətin vəhdətini təmin edəcəyini düşünmüşlər. Mir Cəlal romantizmda təbiət və mədəniyyətin qarşıdurmasından bəhs edərək, təbiətin mədəniyyətə üstünlük təşkil etdiyini qeyd etmişdir. Həndəsə şəkillərlə müzəyyən şəklə salınmış bağçalar təbiət döşündə, dağlar, yamaclardakı ağaclıqlar, yaşıllıqlardan aşağı tutulur" [7, s. 21].

"Göl məktəbi" nümayəndələrinin ədəbi dilə tələbləri özünəməxsusdur. Vordsvord, təmtəraqlı həyatı sadə yaşayışın əvəz etməsinin insanın mənəvi dünyasının ifadəsində daha təbii olmasına gətirib çıxaracağını irəli sürmüşdür. Kolric və Vordsvord, şəhərlərin zəngin həyatını deyil, kəndin sakit həyatını seçməyi vacib saymışdırlar ki, insanların ehtirasları təbiətin gözəlliyi ilə qovuşa bilsin. Əsərin dili, şairin təkrarlanan ədəbi təcrübələrindən və davamlı duyğulardan qaynaqlanmalı, oxucudan uzaq olsa da, digər şairlərin dilindən daha uzunömürlü və fəlsəfi olmalı, dəyişən estetik zövqlərə cavab verə bilməlidir. O da var ki, Vordsvorda görə, yeni şairin dili bütün fərqlilikləri ilə yanaşı, təbiiliyi ilə seçilməli, sənətdə mənasızlığa və bayağılığa yol verilmədən kompozisiyanın mükəmməlliyi nəzərə alınmalıdır [13, 5].

“Lirik balladalar”ın müqəddiməsində romantizmin yaranma səbəbləri izah olunur. Vordsvord, keçmiş dünya düzəninin bir çox amillərinin insanın dərketmə qabiliyyətini zəiflədiyini və bəşəriyyəti həzzalma qabiliyyətindən məhrum etdiyini bildirir. Bununla yanaşı, yeni dünya düzənində romantizmin səylərinin gülünc olduğunu qeyd edir, çünki şər yalnız güclü insanların və sistemin nəzarəti altında geniş yayılacaqdır. Vordsvord, romantizmin başqa bir göstəricisi olaraq yeni şeirlərin bədii dilində mücərrəd fikirlərin poetik deyimlərlə ifadə edilməsinin oxucuya unikal bir təsir bağışlayacağını vurğulayır. Bu unikallıq isə xalq dilində nadir hallarda rast gəlinən bir xüsusiyyətdir. İndilis romantizminin ilk nümayəndəsi şeirlərinin poetik dili üçün səciyyəvi olan özünəməxsusluğa belə aydınlıq gətirmişdir: “Onlar (romantizm ədəbi cərəyanının prinsipləri ilə yazılan şeirlər – **N.O.**) zaman-zaman ehtiraslar zəminində gerçəkləşən məcazlardır və mən hissləri, duyğuları bu şəklə saldım. Həmçinin mexaniki bir üslubla yazan şairlərin (realizm nümayəndələrinin – **N.O.**) dillə bağlı mövcud qəliblərini rədd etməyə çalışdım. İnandım ki, oxucunu ətdən və sümükdə ibarət, hisslərə sahib insan olduğuna inandıracaq, bu yolla onu maraqlandıracağam. Əlbəttə, digər üslubda yazanlar da bu yeni ədəbiyyatdan söz açacaqlar. Onların fikirlərinə müdaxilə etmədən öz qərarımda qalıram” [13, s. 5-6].

“Lirik balladalar”ın müqəddiməsində romantizmə uyğun əsərin şeir və ya nəsr dilində yazılması məsələsi müzakirə olunur. Vordsvord, yeni ədəbiyyatın birmənalı qarşılanmayacağını, çünki nəsrə məxsus bir misra şeir kimi qəbul edilərsə, şairin tənqid olunacağını vurğulayır. O, poeziya və nəsr dilini fərqləndirməyin doğru olmadığını bildirir, çünki hər ikisi eyni orqanlarla müraciət edir və oxşar formalarla ifadə olunur. Vordsvord, nəsr dilini poeziya dilinə uyğunlaşdırmanın vacibliyini qeyd edir. Poeziyanın mahiyyəti nəsrin mahiyyətindən fərqlənmir, hər ikisinin damarlarında insan qanı axır...”[13, s. 7-8].

“Lirik balladalar”ın müqəddiməsində Vordsvord şairin cəmiyyətin digər üzvlərindən fərqləndiyini qeyd edir. Şair, başqalarından daha çox şövq, məhəbbət, biliyə sahib olub, ehtiras və istəklərini təhlil edərək həyatdan zövq alır. Romantizmin ilk nümayəndələri şairin fərdi keyfiyyətlərinin nəzərə alınmasını vacib saymış və poeziyada ehtirasları təsvir edərkən şairin şərtiliklərə əsaslandığını vurğulamışlar. Vordsvorda görə, şairin əsas məqsədi oxucuya həzz verməkdir və bu məqsədlə öz hisslərini oxucunun hisslərinə yaxınlaşdırmalıdır. Vordsvord, şairlə alimin eyni missiyanı paylaşdığını qəbul etsə də, onların bu missiyanı fərqli formalarda çatdırdıqlarını bildirir. O, şairin biliyini varlığımızın təbii bir hissəsi kimi, alimin biliyini isə fərdi və şəxsi əldəetmə kimi təqdim edir. Alim həqiqəti uzaq bir məqsəd kimi axtarır, şair isə bütün insanlarla birlikdə onu sevinclə qarşılayır və həqiqəti birgə ifa edirlər. Vordsvordun fikrincə, şairin biliyi insanların gündəlik həyatına yaxın, təbii və dərindən gələn bir hissədir, alimin biliyi isə daha çox xarici, təcrid olunmuş və fərdi təcrübə ilə əlaqəlidir. Poeziya bütün biliklərin nəfəsi və incə ruhudur, bütün elmin fövqündə tapılan ehtiraslı ifadədir. Şekspirin söylədiyi kimi, şair haqqında qəti şəkildə demək olar ki, o, “əvvəl və arxaya baxır” [13, s.11].

Əlbəttə ki, sənətkarın öz zamanı üçün əhəmiyyəti məsələsi də Vordsvordu düşündürmüş, ingilis romantizmi haqqında ilk söz sahibi bu qərara gəlmişdir ki, ağıl tərəfindən müəyyənləşdirilən torpaq və iqlim ayrı-seçkiliyinin, dil və ədəb müxtəlifliyinin, qanun və adətlərdəki fərqlərin, şiddətlə məhv edilən cəmiyyətlərin mövcudluğuna baxmayaraq, şair insan təbiətinin müdafiə qalası olmaqla hər yerdə sevgini təmsil edir. Hissiyyatla bağlı maddi və mənəvi olan hər şey şairin düşüncə obyektinə çevrilə bilər: “Şeir bütün biliklərin birincisi və sonuncusudur; insan qəlbi kimi ölməzdir” [13, s.11].

Təqdirəlayiq haldır ki, eyni xüsusiyyətlərin bir qədər də təkmilləşdirilərək Hüseyn Cavid romantizmində yer tutmasını görkəmli ədəbiyyatşünas İsa Həbibbəyli belə dəyərləndirmişdir: “İdeal həqiqət axtarıcılığı, xəyalla həqiqqət arasındakı təzad, bu təzaddan doğan bəşəri kədərin bədii təcəssümü, hadisələrin daxili mənasına dərindən varmaq kimi romantizm ədəbi cərəyanının təbiətindən doğan ideya-bədii prinsiplər şairin [5, s.350].

Vordsvordun romantizmə dair təfəkküründə şairin yaratdığı surətlərin həyatla əlaqələndirilməsi vacibdir. Ancaq R.Əliyevin "Ədəbiyyat nəzəriyyəsi"ndə romantiklərin insanın daxili aləmini təsvir etmə tərzinin daha çox ədəbiyyatın özündən qaynaqlandığı vurğulanır. Romantiklər insanın psixoloji və emosional vəziyyətini təsvir etməyə irəliləsələr də, onların yaratdığı qəhrəmanlar hələ də canlı insan obrazından daha çox bir konsepsiya və ideya idi. Beləliklə, romantizmin insanı dərk etmə tərzi, klassisizm və sentimentalizmin mərhələlərindən sonra gələn bir inkişaf idi, lakin onun insanın iç aləmini təqdim etməyi hələ tamamlanmamışdı. Onların çoxu kitab mədəniyyəti ilə bağlı olan ideyaların ədəbi illüstrasiyası kimi yaradılırdı. Onlarda koloritli adam cizgiləri universal adam ideyasının cizgilərindən az idi” [4,– s. 43].

R.Əliyev romantizm ədəbi cərəyanını insanın psixoloji və emosional təcrübəsini dərk etmə prosesinin daha dərin və radikal mərhələsi olaraq təqdim edir. O, klassisizm, sentimentalizm və romantizmin insanı dərk etmə baxımından ardıcıl mərhələlər olduğunu bildirir, amma romantizmin insanın iç aləmini təsvir etməsi daha irəliləmişdir. Vordsvord isə şairin psixoloji vəziyyəti ilə əlaqələndirərək, şeirin əsasını zövq, ehtiras və həzzin təşkil etdiyini vurğulamışdır. "Göl məktəbi" nümayəndələri isə romantizmin şeir və nəsr dilində eyni şəkildə tətbiq oluna biləcəyini qeyd edir, lakin şeir vasitəsilə həzzin daha təsirli olduğunu və oxucunun yeni şeirdən məmnun olması üçün köhnə ədəbiyyatdan uzaqlaşmalı olduğunu bildirirlər.

Vordsvord romantizmin şairin düşüncə hüdudlarını aşan bir güc olduğunu qeyd edərək, yeni şeirin insanların müxtəlif həzz anlayışlarına uyğun şəkildə təsir etdiyini vurğulamışdır. O, romantizmi cəmiyyətin əxlaqi yüksəlişinə xidmət edən bir vasitə olaraq görür, ədəbiyyatın yalnız estetik zövq yaratmaqla kifayətlənməyib, həm də insanları mənəvi inkişaf yönündə istiqamətləndirməli olduğunu bildirir. Bəllidir ki, əksər elmi ədəbiyyatlarda XIX əsr ingilis ədəbiyyatını təmsil etmiş Bayron, Şelli, Kits və V.Skott yaradıcılığında özünü göstərən romantizm “Göl məktəbi”

nümayəndələrinin romantizmindən fərqləndirilmiş və bu zaman daha çox qələm sahiblərinin cəmiyyət həyatına münasibətləri nəzərə alınmışdır. Bununla belə, diqqətdə saxlamağa ehtiyac vardır ki, altı əsas prinsip romantizm ədəbi cərəyanına aid edilən bütün qələm sahiblərini birləşdirməkdədir:

- Sənətdə təbiətin təntənəsi, yaxud sənəti təbiət və insanın obrazı kimi təqdim etmə.
- Fərdi varlıq  və mənəviyyatın önə çəkilməsi.
- Kədər içərisində əziyyət çəkən tənha və ümidsiz insana məxsus cəmiyyətdən uzaqlaşmaq meyillərinin tərənnümü.
- Adi insanın sərhədləri müəyyənləşdirilə bilinməyən mənəvi dünyasına maraq.
- Qadınların ideallaşdırılması.
- Bütün olmuşların şəxsiyyətləşdirilmə prizmasından izahı və pafoslu aldatma.

**ƏDƏBİYYAT**


1. Bayron, C.Q. Seçilmiş əsərləri / C.Q.Bayron. – Bakı: Şərq-Qərb, – 2006. – 224 s.
2. Əfəndiyev T. Romantizm: taşəkkülü, problemləri, şəxsiyyətləri / T.Əfəndiyev. – Bakı: Azərnəşr, – 2020, – 480 s.
3. Ələkbərli G. İngilis romantizmində “Göl məktəbi”nin yeri və rolu // – Bakı: Filologiya məsələləri, – 2019. № 7, – s. 223-227
4. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi / R.Əliyev. – Bakı: Mütərcim, – 2008. – 360 s.
5. Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman. Əsərləri, 10 cilddə, II cild. / Həbibbəyli, İ. – Bakı: Elm və təhsil, – 2017. – 1070 s.
6. Hüseyn Cavid. Əsərləri. 4 cilddə, I cild / Hüseyn Cavid. – Bakı. Yazıcı, – 1982. – 321 s.
7. Mir Cəlal. Ədəbiyyatda romantizm // Mir Cəlal. – Bakı: Azərbaycan Milli Kitabxanası. – 2022, – 144 s.
8. Şıxlı, İ. XVIII əsr xarici ədəbiyyat tarixi. Dərslik / İ.Şıxlı, M.Ə.Tahirli, M.B.Həyatzadə. – Bakı: ADPU nəşriyyatı, – 1970, – 150 s.
9. Yelizarova, M.Y. XIX əsr xarici ədəbiyyat tarixi. Dərslik / M.Y.Yelizarova, S.P.Qidjey, B.İ.Koleçnikov, N.P.Mixalskaya. – Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, – 1964. – 654 s.
10. http://feb-web.ru/feb/ivl/vl6/vl6-0873.htm?cmd=p
11. https://dergipark.org.tr/tr/download/article-file/255638
12. https://xeyrulla.com/category/bleykdd%C9%99nt%C9%99rcum%C9%99l% C9%99r/
13. https://faculty.csbsju.edu/dbeach/beautytruth/Wordsworth-PrefaceLB.pdf
14. https://www.vbky.com.tr/media/t1/001/612/523/955/William-Wordsworth-Secme-Siirler-ilk-23-Sayfa.pdf


## XÜLASƏ


Məqalə ingilis ədəbiyyatında romantizm cərəyanını təmsil edən müəlliflərin sənət prinsiplərinə həsr olunub. Burada Uilyam Bleykin yaradıcılığı, romantizmin tələblərinə cavab verən ilk nümunə olaraq önə çəkilir. Romantizmin nümayəndələrinin təbiətə olan münasibətləri, estetik mahiyyət daşıyan bir yanaşmadır, çünki onlar realistlərin ağıl kultunun insan zəkasında Tanrının inkarına gətirib çıxara biləcəyini düşünürdülər. Bleykin "Pələng" şeiri realistlərə cavab olaraq yazılıb və şeirin sonunda müəllif qətiyyətlə bildirir ki, ağıl pələngin möhtəşəm quruluşunu yarada bilməz.

Romantizm prinsiplərinə aydınlıq gətirən ilk yazı isə Vordsvord və Kolricin müəllifliyi ilə 1880-ci ildə ikinci dəfə nəşr olunan “Lirik balladalar”ın müqəddiməsidir. Vordsvord bu müqəddimədə yeni ədəbiyyatı fərqləndirən xüsusiyyətləri geniş təhlil etmişdir. O, insan ehtiraslarının təbiətin gözəlliyinə qovuşması üçün münbit şəraitin olması gərəkdiyini vurğulamış və bu şəraitin saflığı qoruyan kənddə tapılacağını qeyd etmişdir. Romantizmin əsas xüsusiyyətləri isə təbiətin şöləsi, fərdi varlığın və mənəviyyatın ön plana çıxarılması, kədər içindəki tənha insanın cəmiyyətdən uzaqlaşma istəyinin tərənnümü, qadının ideallaşdırılması, hadisələrin şəxsiyyətləşdirilmə prizmasından izahı və pafoslu aldatma kimi aspektləri əhatə edir.



**Açar sözlər:** Tanrı, romantizm, Bleyk, pafos, qadın, ideallaşdırma, təbiət.


## РОМАНТИЗМ КАК ЛИТЕРАТУРНОЕ ТЕЧЕНИЕ В АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЕ

## РЕЗЮМЕ


Статья посвящена художественным принципам английских романтиков, с особым акцентом на творчество Уильяма Блейка. В ней отмечается, что обращение к природе в произведениях романтиков имело эстетический характер, поскольку они считали, что культ разума, продвигаемый реалистами, может привести к отрицанию Бога. В ответ на это Блейк написал стихотворение «Тигр», где утверждает, что разум не способен создать нечто столь величественное, как тигр.

Также рассматривается предисловие к сборнику «Лирические баллады» Уильяма Вордсворта и Сэмюэла Тейлора Кольриджа, где Вордсворт анализирует основные принципы новой литературы. Он считает, что для слияния человеческих эмоций с природной красотой нужно искать такие условия в сельской местности, а не в искусственном городе. В целом, романтизм характеризуется прославлением природы, акцентом на индивидуальность и духовность, идеализацией женского образа и объяснением явлений через призму одушевления.



**Ключевые слова:** Бог, романтизм, Блейк, пафос, женщина, идеализация, природа.


## ROMANTICISM AS A LITERARY MOVEMENT IN ENGLISH LITERATURE

## Summary


The article focuses on the artistic principles of authors representing the Romantic movement in English literature. It emphasizes that, in terms of adhering to the Romantic movement's demands in England, the works of William Blake should be assessed first. The references to nature in the works of Romantic poets and writers held significant aesthetic value, as they believed that the rationalist approach promoted by the realists could lead to the denial of God in human

consciousness. Blake's poem *The Tyger* was written in response to the realists, with the author asserting at the end that no intellect could create a creature as magnificent as a tiger.

The first work that clarifies the principles of Romanticism is the preface to the collection *Lyrical Ballads*, written by William Wordsworth and Samuel Taylor Coleridge and published for the second time in 1880. In this preface, Wordsworth analyzes in depth the qualities that distinguish the new literature. According to him, for human emotions to merge with the eternal beauty of nature, favorable conditions must be present. Wordsworth believed that such conditions could not be found in an artificial and insincere city but instead in a rural setting that maintains its purity. The main features of Romantic works include the glorification of nature, the emphasis on individuality and spirituality, the portrayal of the lonely and desperate person who seeks to withdraw from society, the idealization of the female image, the interpretation of phenomena through personification, and the use of grandiloquent illusion.

**Keywords:** God, Romanticism, Blake, pathos, woman, idealization, nature.

**RƏYÇİ: dos. L.Ələkbərova**